


Yeni nəşrlər

# Müəllimlər üçün metodik vəsait

Cəmiyyətin inkişafı, insanların rifah halının yüksəlişi, onların təhsili, tərbiyəsi, mədəni davranışı, səmərəli fəaliyyəti müəllimin pedaqoji fəaliyyətindən, onun fədakar əməyindən çox asılıdır. Müəllim bugünkü yetişən nəslə təhsil verməklə millətin gələcəyini hazırlayır.

Ulu Öndər Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir". Müəllimlik cəmiyyətin ən şərəfli və ən hörmətli peşəsidir. Ulu Öndər Heydər Əliyev müəllim adına, müəllim əməyinə, fəaliyyətinə daim böyük qiymət vermiş, bu şərəfli əmək sahiblərinin fəaliyyətini yüksək dəyərləndirərək demişdir: "Mən yer üzündə müəllim adından yüksək və şərəfli bir ad tanımıram!". Bu qiymətli fikirlər dahi rəhbərin müəllimlik peşəsinə yaxından bələd olmasından, bu peşəni icəliklərinə qədər dərindən bilməsindən, bu peşəni məhəbbətlə sevməsindən və daim müəllimlərinə dərin hörmət və məhəbbət bəsləməsindən irəli gəlirdi.

Müəllim cəmiyyətimizdə gedən tərəqqinin, yeni dövlət quruculuğunun önündə addımlayan və yetişən nəsli ən yeni biliklərlə silahlandıran, tərbiyələndirən, inkişaf etdirən fəal bir ziyalıdır.

İnsanlar müəllimlər vasitəsilə elm, bilik qazanaraq müxtəlif peşələrə yiyələnir, inkişaf edir, formalaşır, sosiallaşır, tərbiyə olunur, dünyanı dərk edir, ətrafda baş verənləri düzgün qiymətləndirir, həyatda fəal mövqe tutur və gələcək həyatını qurur. Bu cəhətdən müəllimlik yer üzünün ən şərəfli peşəsidir.

Elə yeni çıxan kitabın adı da "Yer üzünün ən şərəfli peşəsi - müəllimlik" adlanır. Kitab "Müəllim" nəşriyyatı tərəfindən nəfis şəkildə, çox zövqlü dizaynla çap edilib (Bakı: "Müəllim", 2025, 400 s.). Metodik vəsaitin müəllifləri professor Rüfət Lətif oğlu Hüseynzadə və dosent Sultanəli Şükür oğlu Qurbanovdur. Metodik vəsaitin elmi redaktoru ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri professor İramin İsayevdir. Vəsaitin rəyçiləri - BDU-nun Pedaqogika kafedrasının müdiri, professor Ləzifə Qasımova, ARTİ-nin Elmi Katibi professor, Əməkdar müəllim Akif Abbasov, SDU-nun Pedaqogika kafedrasının müdiri dosent Aytəkin Məmmədova, ADPU-nun Ümumi pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə Rüstəm qızı Quliyevadır.

Metodik vəsait, ilk növbədə, ümumtəhsil məktəblərinin, kollec və ali məktəb müəllimlərinin istifadəsi üçün nəzərdə tutulub. Bununla bərabər pedaqoji təmayüllü ali məktəb tələbələrimiz, magistr və doktorantlarımız çox rahatlıqla, geniş şəkildə bu kitabdan faydalana bilərlər.

**Rüfət HÜSEYNZADƏ,**
*pedaqoji elmlər doktoru, professor,*
*Əməkdar müəllim*